# XALQ ŞAİRİ HÜSEYN ARİF
# AŞIQ YARADICILIĞI HAQQINDA



Mən uşaqlıqdan aşıq ədəbiyyatı ilə bağlıyam. Buna səbəb mənim ata-anamın, babalarımın saza marağının olması olub. Bizim evimizdə tez-tez Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq Məhəmməd və başqaları olardı. Demək uşaqlıqdan saz havaları, aşıq şeiri mənim iliyimə, qanıma hopmuşdur. Mənə elə gəlir ki, hər hansı xalqın böyüklüyü onun sayının azlığında-çoxluğunda deyil, mədəniyyətinə, kökünə, babalarına hörmətinə nə qədər bağlı olmasındadır. Yadımdadır bir dəfə Səməd Vurğun aşıqlardan danışarkən dedi ki, "Biz Ələsgəri ona görə sevirik ki, ona görə yox ki, qayıdıb Ələsgər olaq, ona görə təbliğ edirik ki, öz kökümüz, öz sazımız üzərində inkişaf edək". Mən də Aşıq Alını təbliğ etdikdə o demək deyil ki, Aşıq Alı olum, məqsədim odur ki, Aşıq Alı kimi kökümüzə bağlı olaq, öz sazımız, sözümüz üzərində inkişaf edək. Hər novatorluq yenilik demək deyil. O, novatorluq gözəldir ki, öz milli qaynaqları ilə bağlıdır. Aşıq birliyinin yaranması ilə bağlı söhbətlər oldu. Və bu birlik təsadüfi yaranmadı. Ona görə yarandı ki, respublikamızda 500-dən çox aşıq fəaliyyət göstərir. Lakin bu aşıqların əksəriyyəti uzun müddətdir ki, müəyyən bir məktəb görmür. Müəyyən bir təşkilat yoxdur ki, onları birləşdirsin. Bu baxımdan da Aşıqlar birliyinin qarşısında çox mühüm məsələlər durur. Elə aşıqlarımız dövrün tələblərinə cavab verir, elə aşıqlar da var ki, zəmanəynən səsləşməyən şeirlər yazırlar.